# ABDULLA QURBANİ UCALIĞI

Haqqında söhbət açmaq istədiyim görkəmli şəxsiyyət, polkovnik, şair, publisist, mahir təşkilatçı , milyonların sevib ürəkdən dəyər verdiyi bacarıqlı natiq Abdulla Qurbanini qırx ilə yaxındır ki, tanıyıram. Bu da ki, bizim tələbə dövrümüzə təsadüf edir. Eyni qrupda oxumasaq da eyni ali məktəbdə, yəni İncəsənət Universitetində təhsil alıb sənətşünas ixtisasına yiyələnmişik. O zamandan tanıdığım və eyni ixtisasa yiyələndiyimiz çalışqan tələbələrin bir çoxu Azərbaycan mədəniyyəti üçün dəyərli şəxsiyyətə çevrilməyi bacardı. Aydın Ağazadə bir müddət ölkənin əsas mətbu orqanlarından biri sayılan "Azərbaycan" qəzetində çalışdı, sonra isə təqaüdə çıxana kimi Ədliyyə Nazirliyində mətbuat xidmətinə rəhbərlik elədi. Çingiz Ələsgərli bu gün Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri, əsərləri uğurla tamaşaya qoyulan dramaturqdur. Yaqub Əlioğlu tənqidi mövzuda yazılmış neçə-neçə kitabın və 70-dən artıq dəyərli sənədli filmin müəllifi kimi "Azərbaycatelefilm" yaradıcılıq Birliyində uğurla fəaliyyətini davam etdirir. Nadir Bədəlov maraqlı televiziya verilişlərinin və publisistik yazıların müəllifi kimi tanınıb sevilir. Nadir Diridağlı məşhur "Tək qalanda qorxma" serialının və çoxlu sayda televiziya verilişlərinin quruluşçu rejissoru kimi bu gün ölkənin əsas dövlət telekanalında çalışır. Saleh Salahzadə bir neçə televiziya kanalında məsul vəzifə tutduqdan sonra əvvəl aylıq "Sportsman" jurnalının direktoru oldu, bu gün isə həcmi 130 səhifədən artıq olan "Brend dünyası" jurnalının baş redaktoru kimi səmərəli fəaliyyət göstərir . mən özüm isə ortaya qoyduğum yazılarla və Azərbaycan mədəniyyətinin foto salnaməsinə töhfələr verməklə cəhdlərimlə nələrisə etməyə çalışdım. Amma Abdulla Qurbani bizim hamımızdan daha artıq dərəcədə irəli getməyi bacardı və özünün qeyri-adi bacarığı, titanik təşkilatçılıq məharəti və işgüzarlığı ilə həm mədəniyyət tariximizə, həm də hərb tarixi salnaməmizə yeni, daha parlaq səhifələr yaza bildi. Belə ki, o hələ ali məktəbi bitirənə kimi minə yaxın irili-xırdalı məqalənin, iki metodik vəsaitin müəllifi və bir sıra teatrlaşdırılmış kompozisiyaların quruluşçu rejissoru kimi hörmət və nüfuz sahibinə çevrilə bilmişdi. Aradan keçən bu illər ərzində o, yaradıcı fəaliyyətini durmadan davam və inkişaf etdirdi. Bu gün o, yüzdən artıq dəyərli kitabın müəllifi, yüzlərlə əlamətdar tədbirin aparıcısı, təşkilatçısı, rejissoru və ssenari müəllifidir.

Mən Abdullanın dostu, həmkarı və tələbə yoldaşı olmağımla həmişə qürur duymuşam. Onun 60 illik yubileyinin qeyd olunduğu günlərdə tədbir iştirakçılartına Əməkdar jurnalist Rəşid Faxralı tərəfindən yazılmış, yarısı təqdimat yazısından, digər yarısı isə kitablarının və bir qisim tədbirlərinin şəkillərindən ibarət olan və nəfis tərtibatla nəşr edilən gözəl bir buklet də təqdim olundu. Bukletin üz qabığında əsas səbəbkar olan görkəmli şəxsiyyət, yazıçı - polkovnik Abdulla Qurbaninin sinəsi medallarla, müxtəlif təltiflərlə dolu olan rəngli portreti çap olunub. Abdulla kimi hərbçi - yazıçı olan Rəşid Faxralının dostuna həsr edib bukletə daxil etdiyi bu maraqlı, emosionl yazı "Palıd ömrü" adlanır. Müəllif bir çox səciyyəvi xarakterlərinə görə xalqımızın dəyərli övladı olan Abdulla Qurbanini məhz palıdla müqayisə edir: "Abdulla palıdı şərtləndirən xarakterlə böyüyüb - dözümlü, səbrli, təmkinli, iradəli. Palıd kimi bağlanıb torpağa. O, torpağı, Vətəni kimsənin sevə bilmədiyi kimi sevib. Elə sevib ki, ürəyi vətənləşib, ürəyinin gözü ilə baxıb dünyaya. Abdulla Novruz oğlu Qurbanovu Abdulla Qurbani edən də məhz bunlardır." Rəşid Faxralı öz yazısında şəxsiyyətinə pərəstiş etdiyi, gördüyü böyük işlərlə qürur duyduğu Abdullanın keçdiyi şərəfli, ibrətamiz ömür yolunu izlədikcə fitri istedadı sayəsində gerçəyə çevirdiyi böyük əməllərin üstünə işıq salır. Abdulla hələ ilk gənclik illərində Uzaq Şərqdə hərbi xidmətdə olarkən yüzlərlə əsgərdən işgüzarlıq keyfiyyətlərinə görə seçildiyi üçün hərbi hissənin azad komsomol komitəsinin katibi seçilir. Müəllif onun hərbi xidmət zamanı gördüyü nəhəng işləri belə şərh edir: "Bu əsgərin məqalələri, oçerkləri, reportajları, şeirləri Moskva, Xabarovsk, Ussuriysk, Kişinyov, Vilnüs və digər şəhərlərdə çıxan qəzetlərdə, jurnallarda nəşr edilirsə bunula necə qürurlanmamaq olar? Baza təhsili Azərbaycan dili olan əsgərin bədii təxəyyülü özünü rus dilində də göstərirsə buna necə istedad deməyəsən?" Əgər insanın daxilində istedad sısqa bulaq kimi özünü biruzə verirsə və gərgin zəhmətlə cilalanırsa, çox keçmədən bu istedad çağlayan çeşməyə, coşqun selə çevrilrib cəmiyyətə yaxşı mə-



nada xeyir, səmərə gətirməyə qadirdir. Abdulla da beləcə hərbi xidməti başa vurduqdan sonra Mədəniyyət və İncəsənət Universitetində teatrşünas təhsili ala - ala hər biri ölkə miqyasında mədəni hadisəyə çevrilə biləcək konkret layihələrə start verməyə başladı. Rəşid öz yazısında bu barədə belə yazır: "Respublikada teatrlaşdırılmış kütləvi tədbirlər Abdulla Qurbanini ssenarist, quruluşçu rejissor kimi də tanıtdı: "Natəvan qızlar bayramı" (Ağdam ), "Qurbani saz byramı" (Cəbrayıl ), "Kəhrəba salxımlı bağlarım mənim" (Zəngilan), "Əmək şöhrəti bayramı" (Beyləqan), "Milli qəhrəmanlar günü", "Yallı bayramı" ( naxçıvan ) ... zamanında mənəvi dəyərləri ilə milli mədəniyyətimizi yaşadıb və indi də böyük ehtiramla xatırlanan o tədbirlərin iştirakçıları indi artıq baba və nənələrdir". Beləcə Abdulla Qurbani ömrü boyunca çoxlu sayda ciddi işlərə imzasını qoyub. Bu işlər o dərəcədə ciddi olub ki, hər hansı digər bir ziyalı bircəsini görə bilsəydi, ömrü boyunca qürur və məmnunluq içində yaşayardı. Rəşid Faxralı Abdullanın bədnam Sovet quruluşu dövründə gördüyü əzəmətli işlərdən bəhs edərək yazır: "Şərur rayon tarix - diyarşünaslıq muzeyinin, Cəlilkənd kəndində Cəlil Məmmədquluzadənin memorial muzeyinin, Abbasqulu Bəy Şadlinskinin xatirə muzeyinin, Zəngilanda Xalqlar Dostluğu muzeyinin yaradıcısı kimi böyük ehtiramla əhatələnən Abdulla Qurbani dəfələrlə ümumittifaq və ümumdünya festivallarının laureatı olub, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl və gümüş medallarına layiq görülüb, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin, SSRİ Mədəniyyət Nazirliyinin, SSRİ Bəstəkarlar İttifaqının Fəxri Fərmanları ilə təltif olunub. Naxçıvan Muxtar Respublikasının Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülüb." Bundan sonra daim həsrətində olduğumuz müstəqillik dövrü gəldi və yazıqlar olsun ki, uzun illər boyunca qan, qirğın, müharibə bu böyük tarixi qələbəmizin yol yoldaşı oldu. Müharibənin acı bağırsaq kimi uzandığını görən Abdulla Qurbani daxilindən gələn səsin hökmü ilə iş taktikasını dəyişmək barədə qərar qəbul etdi. 1993 - cü ildə Şərur rayon mədəniyyət şöbəsinin müdiri kimi məsul işdə çalışmsına baxmayaraq rahat, isti kabinetini soyuq, nəm səngərlərlə əvəz etmək yolunu tutdu və ötən bu müddət ərzində əsgərdən polkovnik rütbəsinə kimi şərəfli bir yol keçdi. Şəhidlərin dəfnində ürəkgöynədən təsirli nitqlər söylədi, xalqımız üçün bütöv bir ordunun görə biləcəyi qədər, hələ bəlkə ondan da artıq işlər görə bildi. Hələ Sovet quruluşu dövründən bəri təşkil etdiyi teatrlaşdırılmış kompozisiyalar əsasən son illər ərzində vətənpərvərlik və Böyük Qələbəyə səfərbər etmək kimi əzəli bir mahiyyət kəsb elədi. Minlərlə insanın iştirakı ilə keçirilən bu tədbirlər öz vüsəti, əzəməti ilə rayon stadionlarını və olimpiya komplekslərini lərzəyə gətirdi. O, həm də son illərdə keçirilən əzəmətli hərbi paradların aparıcısı oldu. Hər birimiz kimi ölkə başçımız da onun sərrast nitqini, yüksək məntiqə əsaslanan dəyərli çıxışlarını diqqətlə dinlədi. Rəşid Faxralı öz yazısının bir yerində bu barədə belə yazır: "İllərini ömür kimi yaşayan, Silahlı Qüvvələrimizin ilk hərbi paradının aparıcısı olan, həmin anlarda gördüklərindən, təqdim etdiklərindən qürurlanan, televiziya tamaşaçılarını, radio dinləyicilərini də qürurlandıran Abdulla Qurbaninin yaşadığı ömür xalq üçün, millət üçündü." Bu gün yüzdən artıq dəyərli kitabın və saysız - hesabsız xeyirxah əməllərin müəllifi kimi Abdulla Qurbani hərb tariximizə və mədəniyyət tariximizə ən parlaq və dyərli səhifələri yazmaqda davam edir. Yazının son səhifəsində oxuduqlarımız sanki bizim fikrimizə qüvvət kimi səslənir: "Əməkdar İncəsənət Xadimi, polkovnik Abdulla Qurbaninin Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında xidmətlərinə görə Azərbycan Respublikası Prezidentinin fəxri təqaüdünə layiq görülməsi Vətən üçün yaşanan ömrə verilən yüksək dəyərdi."

O da maraqlıdır ki, Ümumilli liderimiz də, cənab prezidentimiz də, həmçinin yüksək çinli dövlət məmurlarımız da Abdulla Qurbanini yaxçı tanımış, onun əməyinə, şəxsiyyətinə hər zaman yüksək dəyər vermişlər. İndi isə Abdullanın 60 illik yubileyində səslənən fikirlərin bir qismini Sizə təqdim edirik.

**Abdulla Qurbani:** - Bu məclisdə iştirak edən Dağbəyi İsmayılov şəhid oğlunun qırx mərasimini keçirdikdən sonra Mruova , mənim yanıma gəldi. Dağbəyi müəllim bu gün"Azərtac"-da baş direktorun müavini kimi məsul bir vəzifədə çalışır. Bu məclisdə cənab general Yusif Axundzadə də iştirak edir ki, Prezidentin Fərdi Təqaüdçüsü adına ikimiz də bir gündə layiq görülmüşük. O, həmçinin Respublikanın Xalq Artistidir, uzun illər bundan əvvəl Əməkdar İncəsənət Xadimi adına layiq görülüb, hərbi paradlar zamanı mən aparıcılıq eləmişəm, o isə 250 nəfərlik hərbi orkestrə rəhbərlik edib. Asif Rüstəmli bizim vətənpərvər alimlərimizdən biridir, dahi Cəfər Cabbarlının Azərbaycanda ən görkəmli tədqiqatçısıdır, filologiya elmləri doktoru, professordur. Fəridə xanım Ləman da şair, jurnalist olmaqla yanaşı, həm də vətənpərvər alim xanımlarımızdan biridir, ondan o tərəfdəki Kəmaləddin Qədim dəyərli Azərbaycan şairidir. Bir vaxtlar mən Naxçıvan Muxtar Respublikasında, öz rayonumuzda on il mədəniyyət şöbəsinin müdiri işləmişəm. Sonra bizim rayonu 3 yerə böldülər: bunlar Kəngərli, Sədərək, Şərur rayonları oldu. Rayonlar bölünəndən sonra həmin bu Kəmaləddin Qədim Sədərək rayonunda mədəniyyət şöbəsinin müdiri oldu. Ondan sağda oturan iki kişiyə "ağsaqqal" deyəndə acıqları gəlir. Əlihüseyn kişinin 97 yaşı var. Bu yaxınlarda Lələtəpəyədöyüş bölgələrinə getmişdi. Ordan qayıdandan sonra Rusiyaya II Dünya müharibəsi veteranları üçün nəzərdə tutulmuş tədbirlərdə iştirak etməyə getdi. Ekranda gördüm ki, orda keçirilən veteranlar balında bir Nataşanı yaman qucaqlamışdı. Deyəsən yadına ötən əsrin qırxıncı illərində keçirilən rəqs gecələri düşmüşdü. Onun yanında oturan Daməd dayı ixtisasca bombardmançı təyyarəçidir və bu gün də döyüşməyə hazır olduğunu dönə-dönə bəyan edib. Zəminə Xınalı bizim hərbçi şairimizdir, neçə-neçə hərbi marşların sözlərini yazıb.

Şahin Musaoğlu: - İndi də sözü millət vəkili Xanhüseyn Kazımlıya veririk:

**Xanhüseyn Kazımlı:** - Abdulla müəllim, mən görürəm ki, burda qonaqlar çoxdur və hər biri də öz ürək sözlərini demək istəyir. Ona görə də bacardığım qədər yığcam danışmağa çalışacağam. Mən hər dəfə cəbhə bölgələrinə gedəndə əziz dostum Abdulla Qurbanidən özümə qarşı hörmət, qayğı, nəciblik görmüşəm. Mən dəfələrlə onunla birgə qışın qarında, payızın yağışında, yayın cırhacırında cəbhə bölgələrinə getmişəm və o da hər dəfə mənə deyirdi ki, gələndə hökmən Milli Məclisdən ezamiyyət kağızı gətir. Allah eləməsin, başına bir iş gəlsə deməsinlər ki, Abdulla aparıb millət vəkilini cəbhədə öldürdü. Abdulla müəllim, mən sənin kimi ləyaqətli, alicənab vətən övladını tanımaqdan , səninlə dostluq etməkdən qürur duyuram. Kaş bizim bütün oğul və qızlarımız sənin kimi istedadlı , mərd, əməksevər, vətənpərvər olaydı. Böyük Xiyabani deyirdi ki, ölümündən qorxmayan bir millətə ölüm yoxdur, zaval yoxdur. Ona görə də biz-siz bir sıra həlledici məqamlarda ölümün gözünün içinə dik baxmağı bacarmalıyıq. Abdulla müəllim, bir rəvayətdə deyilir ki, bir səyyah yol ilə gedirmiş. Birdən yaman susadığını hiss edir. Uzaqda bir qaraltı görür. Yaxınlaşanda görür ki, bu bir sərv ağacıdır və bu ağacın dibindən gözəl, sərin sulu bir bulaq axır. Sudan doyunca içir, əl-üzünü yuyub sərinləyir. Sonra üzünü qollu-budaqlı, gözəl kölgəli sərv ağacına tutub deyir ki, sənə nəsə arzulaya bilmirəm, görürəm ki, hər şeyin var. Sadəcə üzümü sənə tutub deyirəm ki, həmişə elə-belə qalasan. Bu sözləri eynilə əziz dostum Abdullaya da aid etmək olar. Abdulla müəllim həm də gözəl ailə başçısıdır. Bir dəfə o, xəstəxanada ürəyindən müalicə olunurdu, mən də ona baş çəkməyə getmişdim. Gördüm ki, Abdulla burda əməlli-başlı darıxır. Məni görən kimi dedi ki, vallah bunların aparatı düzgün göstərmir, mən özümü yaxşı hiss edirəm. İndi isə icazə verin , bu gül dəstəsini, bu hədiyyəni və bu Fəxri Diplomu əziz dostum Abdulla müəllimə təqdim etməklə ona ən xoş arzularımı bildirim.

***(Davamı var)***

***Bayram AFURCALI***